Uğurlu əks-hücum əməliyyatı işğala son q





©REZA

# Həsrət körpüsü qələbə rəmzinə çevrildi

Az qala hər qarış ərazisində tarixin hələ də açılmamış sirləri yatan Azərbaycan zaman-zaman savaşlar meydanında mətinlik, əzmkarlıq nümayiş etdirməklə, yağı düşmən üzərində qələbə qazanaraq öz bayrağını ucaldıb.

Bu günlərdə Cəbrayıl rayonunun işğaldan azad edilən ərazilərindəki tarixi abidələrdən hesab edilən, o taylı-bu taylı, şimallı-cənublu Azərbaycanı qovuşduran Xudafərin körpüləri də təcavüzkarların tapdağından qurtardı. İllər boyu hicran, ayrılıq simvoluna çevrilən Araz sanki Xudafərinlə birlikdə həsrətə son qoydu.

Tarixən Azərbaycanın quzeyi ilə güneyini birləşdirən, ermənilər tərəfindən işğal edilən Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüləri haqqında zaman-zaman söz açılıb. Mərhum yazıçımız Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanını oxuyan hər kəs bilir ki, əsər Şah İsmayıl Xətainin həyatı və dövlətçilik uğrunda mübarizəsinə həsr olunsa da, Xudafərin haqqında da burada bilmədiyimiz çox həqiqətlər var. Qədimlik və türkün tarixi hünərlərinə şahidlik rəmzi kimi əsərin adı da məhz buna görə "Xudafərin körpüsü" adlandırılıb.

Xudafərin körpüsü Azərbaycanı birləşdirən simvolik bir abidədir. Xudafərin deyəndə Araz çayı üzərindəki qədim körpülər yada düşür. Azərbaycan memarlıq sənəti tarixinin möhtəşəm abidələrindən hesab edilən, Araz çayı üzərində salınan iki körpüdən birincisi Baş Xudafərin körpüsüdür ki, uzunluğu 130, eni 6, hündürlüyü 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla, uzunluğu 200, eni 4,5, hündürlüyü 10 metrdir. Azərbaycanın memarlıq sənətində bu əzəmətli abidələr haqqında dünyanın bir çox alimləri qiymətli fikirlər söyləsələr də, onların nə vaxt inşa edilməsi haqqında tarixdə eyni fikrə az rast gəlinir.

Baş Xudafərin körpüsünün daha qədim olması ehtimal olunur. Belə ki, bu körpünün Əhəməni imperiyası zamanında ağacdan tikilməsi, Eldəgizlər dövləti zamanında isə daş və kərpiclə üzləndiyi güman edilir. Bəzi mənbələrdə isə ikinci körpünün ağacdan müvəqqəti qurğu kimi inşa edilməsi, Elxanilər dövləti zamanında (on üçüncü yüzillik) isə daş və kərpiclə üzlənməsi haqqında fikirlər söylənilir. İran tarixçisi Həmdullah Qəzvini əsərlərində körpülərin adını "Xuda-Afərin" kimi yazır. Bu da farsca "Allah tərəfindən yaradılmış" və "Allaha Mərhəba" mənalarını verir. H.Qəzvini yazır ki, Xudafərin körpüsü Məhəmməd peyğəmbərin yaxın adamı olan Bəkir ibn Abdulla tərəfindən miladi tarixlə 736-cı ildə inşa etdirilib. Bəzilərinin fikrincə isə, həmin şəxs körpünü tikdirməyib, yalnız təmir etdirib. Xudafərin körpüsünün Makedoniyalı İsgəndər, ya da Roma sərkərdəsi Pompey tərəfindən tikilməsi barədə də versiyalar var. Təəssüf ki, bu körpüləri inşa etdirən şəxsin adı barədə tarixi mənbələrdə heç bir dəqiq yazılı məlumata rast gəlinmir. Ümumi fikir yalnız ondan ibarətdir ki, hər iki körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan onlara "Xudafərin" adı verilib. Xudafərin körpüsü tarixən Azərbaycanın quzeyi ilə güneyinin əlaqəsini möhkəmləndirən yeganə keçid kimi tanınıb. Lakin bu ayrılıq, hicran, intizar dolu baxışların altında belini bükən körpülər yüzillər boyu yadellilərin Azərbaycanın quzeyinə basqınlarına da şərait yaradıb.

Bu gün Xudafərin körpülərinin müzəffər Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilməsinin nəinki strateji, eyni zamanda tarixi əhəmiyyəti var.

Körpülərin birləşdiyi hər iki sahil gözəl dağlıq landşaftı olan yerlərdir. Bu təbiət abidəsinə üzvi olaraq daxil edilmiş körpülər insanın ətraf mühitlə qarşılıqlı münasibətinin uğurlu örnəyidir. Bu səbəbdən Xudafərin dərəsi təbiətin və tarixin dəyərli abidəsidir.

Körpülərin böyüyü Xudafərin kəndindəki 15 aşırımlıdır. Körpünün üç orta tağı salamat qalıb. Sahil tağları isə iyirminci yüzilin 30-cu illərində Şimali və Cənubi Azərbaycan arasında əlaqələri kəsmək üçün İran və SSRİ-nin birgə qərarı ilə dağıdılıb. Həmin vaxtdan da yerli əhali körpüyə ikinci - "Sınıq körpü" adını da verib. Xudafərin ədəbiyyat nümunələrində də geniş təsvir olunub: "Xudafərin körpüsünün üstündən 1068-ci ildə böyük səlcuq sultanı Alp Arslan qələbə yürüşü ilə, on altıncı yüzildə isə Aşıq Qurbani əsir kimi keçib:

*Qolubağlı keçdim Xudafərindən,*
*Üzüm gülməz, heç açılmaz, ah, mənim!"*

Uzun onilliklər boyu Azərbaycanı nəinki dünya ölkələri, hətta qitələrlə birləşdirən karvan yolları Araz çayı yatağında, yəni Xudafərin dərəsində bir-birinə qovuşub. Xudafərin də Qarabağımız kimi uzun zaman idi ki, əlçatmaz, ayaqdəyməz yer idi. Amma artıq 30 ilə yaxın həsrətə son qoyuldu, şanlı ordumuzun qələbəsindən sonra əfsanəvi körpünü görmək, üstündən keçmək artıq xəyal yox, reallıqdır... Bu gün şanlı Azərbaycan Ordusu əfsanəvi Xudafərin körpüsündə bayrağımızı dalğalandırır.

**Məhəmməd NƏRİMANOĞLU,**
**"Azərbaycan"**